**“Mühasibat” ixtisası, təhsilinin 3-cü ili tələbələrinə şamil olunur.**

***UNEC üçün ACCA Accelerate Proqramı üzrə Rəsmi Məlumat***

UNEC-in “Mühasibat” bakalavr proqramı üzrə ACCA Accelerate kodunun (UZ1) verildiyini məmnuniyyətlə təsdiq edirik.

Bu Accelerate kodu hal-hazırda təhsilin 3-cü ilində oxuyan və 31 dekabr 2027-ci il tarixində məzun olması gözlənilən tələbələr üçün nəzərdə tutulmuşdur. Kod uyğun olan 3-cü kurs tələbələrinə ACCA Accelerate proqramı çərçivəsində ACCA-da qeydiyyatdan keçmək imkanı yaradır və aşağıdakı güzəştləri təmin edir:

- İlkin qeydiyyat haqqının azaldılması;
- Exemption (azadolma) haqları üzrə endirimlər;
- ACCA illik üzvlük haqqından (subscription fee) azadolma.

Qeyd edək ki, UZ1 Accelerate kodu yalnız uyğun olan 3-cü kurs tələbələri üçün keçərlidir və 31 dekabr 2027-ci il tarixindən sonra istifadə edilə bilməz.

***Uyğunluq və Qeydiyyat Tələbləri***

- Tələbə hal-hazırda təhsilin 3-cü ilində olmalı və yuxarıda qeyd olunan təsdiqlənmiş proqramda təhsil almalıdır;
- Tələbə ACCA-da əvvəllər qeydiyyatdan keçmiş (aktiv, dayandırılmış və ya çıxmış) olmamalıdır;
- UZ1 Accelerate kodu yalnız tələbənin ilk ACCA onlayn qeydiyyatı zamanı istifadə edilməlidir;
- ACCA qeydiyyatı 31 dekabr 2027-ci il tarixindən əvvəl tamamlanmalıdır;
- Qeydiyyat zamanı əlavə edilmiş Accelerate Uyğunluq Məktubu (Eligibility Letter) onlayn ərizəyə yüklənməlidir;
- Uyğunluq məktubunda edilən dəyişikliklər qeydiyyat prosesinin gecikməsinə səbəb ola bilər.

***Məzun olduktan sonrakı tələblər:***

- Tələbə ali təhsil proqramını 31 dekabr 2027-ci il tarixinədək uğurla başa vurmalıdır;
- Azadolmalar (exemptions) proqramın tamamlanmasına əsasən 31 yanvar 2029-cu il tarixinədək tələb edilməlidir;
- Azadolma uyğunluğunun qiymətləndirilməsi üçün tələbələr məzuniyyət haqqında diplomu və tam akademik transkripti təqdim etməlidirlər;

- Tələbələr ACCA hesablarındakı bütün ödənişlərin vaxtında həyata keçirilməsinə görə şəxsi məsuliyyət daşıyırlar. Ödənişlərin gecikdirilməsi Accelerate güzəştlərinin itirilməsinə səbəb ola bilər.

**Qeyd**: Əgər tələbə proqramı tamamlamazsa, Accelerate güzəştlərinə uyğunluğunu itirə bilər və müvafiq ACCA imtahanlarını verməli ola bilər. Bu halda təqdim edilmiş azadolmalar standart tariflə hesablanacaq.

Əlaqə

Əlavə dəstək və suallar üçün ACCA Connect xidməti ilə students@accaglobal.com elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq mümkündür.